# SAMUX: HƏR SAHƏDƏ DİNAMİK İNKİŞAF MÜŞAHİDƏ OLUNUR

Respublikamızın hər yerində olduğu kimi, qədim Oğuz yurdu Samuxda da makroiqtisadi göstəricilərdə müsbət dinamika müşahidə olunur, aqrar sahə, sözün əsl mənasında, davamlı inkişafdadır. Eyni zamanda, rayonda tikinti, abadlıq və quruculuq işləri davam etdirilir, sakinlərin rahatlığı üçün mövcud imkanlardan maksimim istifadə edilərək, sosial-məişət və firavanlığı təmin edilir. Bəli, xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar reallığa çevrilmiş, milli-mənəvi dəyərlər yüksəlmiş, dövlətçilik ənənələrinin formalaşması prosesi surətlənmiş, müstəqilliyin əbədi, daimi və dönməz xarakter almasına, sabitlik və əmin-amanlığın bərqərar olmasına nail olunmuşdur. Rayonda həyata keçirilmiş çoxsahəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə də diqqəti çəkir. Mövcud sənaye müəssisələrində istehsal gücünün artırılması, yeni müəssisələrin işə salınması şəhərdə iqtisadiyyatın yüksəlməsinə güclü təkan vermişdir. Sahibkarlıq inkişaf etmiş, yeni müəssisələr yaradılmış, məktəblər, bağçalar, müalicə ocaqları müasir zövqlə tikilmiş və ya əsaslı surətdə təmir olunmuş, yeni yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, gözoxşayan park və istirahət mərkəzləri, qədim ornament və elementlərlə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi gözəllik verir.

**Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Samux rayonuna daim diqqət və qayğısı, rayon rəhbəri-Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayevin apardığı məqsədyönlü, ardıcıl və müvafiq tədbirlərin görülməsi qədirbilən samuxluların qurub-yaratmaq əzmini daha da gücləndirmiş, bu isə öz bəhrəsini vermişdir.** Hər yerdə yenilik, müasirlik, səliqə-sahman, bir sözlə, sakinlərin tam rahatlığı və firavanlığı burada əsas meyardır. Mübaliğəsiz, sözün əsl mənasında, Kür qoynunda uyuyan gözəlləşmiş Oğuz yurdu Samux şəhərinin ərazisinə daxil olanda, yaraşıqlı, bir-birini tamamlayan binalar, füsunkar Heydər Əliyev parkı, yüksək səviyyədə ailəvi istirahət mərkəzləri, keyfiyyətli, mədəni xidmət istirahət edənləri məftun edir.







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 yanvar tarixli 500 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yerinə yetirilməsi məqsədi ilə rayon icra hakimiyyəti üzrə geniş tədbirlər planı hazırlanmış və onun icrasına başlanmışdır.

Yenikənd-Köbər-Qaraağaclı yolu üzərində bir aşırımlı körpünün tikintisinə başlanmışdır. Ümumi uzunluğu 24 metr, eni 8,4 metr olan körpünün tikintisi başa çatdırılmışdır. Samux şəhər 2 saylı uşaq bağçası üçün ayrılmış yeni binada yenidənqurma və bərpa işlərinə başlanmış, hazırda işlər başa çatmaq üzrədir. Rayonun Qaraağaclı qəsəbəsində su nasos stansiyası yenidən qurulmuşdur. Burada əlavə nasos quraşdırılmış, 2 km uzunluğunda 220 mm boru ilə su xətti çəkilmişdir. Bu da əlavə 100 hektar sahənin suvarılmasını təmin edəcəkdir. Bütün istiqamətlərdə yolların çiyin hissələri avtoqreyderlə plana salınmış, torpaq yatağı mailllikləri kol-kosdan təmizlənmişdir. Gəncə-Samux, Samux-Lək, Samux-İnstitut, Qaraağaclı-Burunqovaq, Samux-Yenikənd-Poylu avtomobil yollarında və çiyin hissələrində 67,9 min kvadratmetr sahədə çınqıl materialı ilə təmir işləri aparılaraq, 4,5 min kubmetr həcmində çınqıl materialı işlədilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC, Vest Milk MMC, Murovdağ Kəndli fermer təsərrüfatı, Hevandarlıq və Yemçilik müəssisəsi, "Region Aqro" MMC kimi iri sahibkar təsərrüfatları fəaliyyət göstərir. Eyni zamanda, rayonda 200 müasir istixana fəaliyyət göstərir ki, onların da ümumi sahəsi 80,0 hektar təşkil edir. Bu istixanalarda il ərzində 8 min tondan çox faraş tərəvəz - pomidor, xiyar yetişdirilir. Bu məhsulların çox hissəsi MDB ölkələrinə ixrac olunur.

Respublikamızın hər yerində olduğu kimi, Samux rayonunda da əhalinin məşğulluğu sahəsində yaranmış problemin aradan qaldırılması məqsədi ilə ölkə başçısının tapşırığı əsasında yeni iş yerlərinin yaradılması və ictimai işlərin təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, bu ilin əvvəllərindən 151-i daimi olmaqla 409 yeni iş yeri yaradılmışdır. Yaradılmış yeni iş yerlərindən 1-i Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon sahibkarlarına 1 layihə üzrə verdiyi 7,0 min manat güzəştli kreditin hesabınadır. Eyni zamanda, ödənişli ictimai işlərə 295 nəfər rayon sakini cəlb edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 07 aprel 2016-cı il tarixli Sərəncamının icrası ilə əlaqədar işaxtaran vətəndaşlar arasında özünüməşğulluq proqramının həyata keçirilməsi proqramı uğurla davam etdirilir. Cari ildə bu proqrama 16 nəfər cəlb edilmiş, müvafiq söhbətlərdən sonra, onlar Beynəlxalq Əmək Təşkilatının təlimlərinə qatılmışdır. 2018-ci ildə təlimlərdə iştirak edib, biznes planları uğurlu hesab edilən vətəndaşlardan 2019-cu ilin 1-ci rübündə 8 nəfəri xidmət sahəsi üzrə əmlakla təmin olunmuşdur.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları bunun əyani sübutudur. Bu sərəncamlar əsasında rayonumuzda 66 subartezian quyusunun qazılıb istifadəyə verilməsi nəzərdə tutulmuşdur ki, onlardan 56-sı istifadəyə verilmişdir. Digər 10 subartezian quyusunun qazılması üçün hazırlıq işləri görülür.

Bununla bərabər, 2019-cu il başlayandan 75 ədəd nasos, 7 ədəd elektrik avadanlığı təmir edilmişdir. Torpaqların suvarılması üçün kanallarda 212 min kubmetr lildən təmizləmə, 35 min kubmetr sahilbərkitmə işləri görülmüşdür. Kanallarda 4 ədəd hidrotexniki qurğu, 4 ədəd hidropostlar təmir edilmiş, 6800 kvadratmetr kol-koslardan təmizləmə işləri aparılmışdır.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür. Hazırda rayonun 30 yaşayış məntəqəsində mavi yanacaqdan istifadə olunur ki, bu da rayon üzrə 85,7 faiz yaşayış məntəqəsinin təbii qazla təmin olunması deməkdir. Rayonda abonentlərin fasiləsiz və normal təbii qazla təmin olunması məqsədilə müvafiq təmir-bərpa işləri həyata keçirilmişdir.

Samux Rayon İcra Hakimiyyəti başçısı aparatına ümumilikdə 102 ərizə, təklif və şikayət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 22 ədəd və ya 17,7 faiz azdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Belə ki, Xəstəxana kompleksinin tikintisi; İnstitut qəsəbə tam orta məktəbi üçün 960 şagird yerlik; Sərkar kənd tam orta məktəbi üçün 800 şagird yerlik; Çobanabdallı kəndində 600 şagird yerlik yeni məktəb binalarının tikintisi; Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikilməsi həll olunacaqdır. Ölkə başçısı tərəfindən 2019-cu ilin "Nəsimi İli" elan edilməsi münasibətilə Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir-şair İmadəddin Nəsiminin anadan olmasının 650 ili olan əlamətdar hadisənin layiqincə qeyd edilməsi istiqamətində müvafiq işlər görülməkdədir.

Göründüyü kimi, Samux rayonu dinamik inkişaf edir, müasirləşir. Əhalinin maddi rifah halı günü-gündən yüksəlir. İnanırıq ki, rayon bu innovativ inkişafla daha böyük nailiyyətlər qazanacaqdır. Zəngin ənənələrə malik qədirbilən Oğuz yurdu Samuxlular bundan sonra da dövlətə, dövlətçiliyə sadiqliyini bir daha nümayiş etdirərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, qarşıda duran mühüm vəzifələri vicdanla, vaxtında yerinə yetirəcəklər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**








